# «KİTABİ DƏDƏ QORQUD» DASTANINDA XALQ NƏQLİYYAT VASİTƏLƏRİ VƏ YOLLAR

**Ə.A.ƏSƏDOVA**
***Bakı Dövlət Universiteti***

Maddi mədəniyyətin mühüm ünsürlərindən biri olan xalq nəqliyyat vasitələri və yollar hər hansı regionun təbii coğrafi şəraiti, təsərrüfatı, ictimai-iqtisadi səviyyəsi və mədəni-texniki səviyyəsi ilə sıx bağlıdır. İstehsal qüvvələrinin tədrici inkişafı bu vasitələrin təkmilləşməsində mühüm rol oynamışdır. İstehsal vasitələrinin, əmək məhsulları ilə yanaşı insanların özlərinin yerdəyişməsi, nəqliyyat vasitələri və yollarla bağlıdır. Nəqliyyatın insanların təsərrüfat fəaliyyətinin ilk mərhələsindən formalaşmasına baxmayaraq, o əmtəə istehsal dövründə maddi istehsalın xüsusi bir sahəsi kimi ayrılmışdır (8, s.84). Bir sözlə nəqliyyat vasitələrinin inkişaf səviyyəsi cəmiyyətin, istehsal vasitələrinin, mədəni texniki inkişafının səviyyəsi ilə sıx bağlı olduğundan mənəvi irsdə onların öyrənilməsi mühüm əhəmiyyət daşıyır.

«Kitabi Dədə Qorqud» dastanında ənənəvi xalq nəqliyyat vasitəsi və yolları haqqında xeyli məlumat verilir və həmin dövrdə onun inkişaf səviyyəsi haqqında müəyyən təsəvvür əldə etmək mümkündür. Dastanda nəqliyyat vasitələrinin bütün növlərinə: bəsit yükdaşıma üsullarından başlamış müxtəlif, minik, yük və qoşqu, hətta su nəqliyyat vasitələri haqqında da məlumata rast gəlmək olur.

Ən qədim bəsit yükdaşıma insan qüvvəsi ilə həyata keçirilmişdir. Dastanın II boyunda Qaraca Çoban «üç yerdə dəvə gibi daş yığdığı» (1, s.43) göstərilir ki, bu da bəsit yükdaşıma üsuluna nümunə ola bilər. Elə həmin boyda Qaraca Çoban bağlandığı «qaba ağacı yerilə-yurdilə qopardı arqasına aldı. Qazamın arqasına düşdü (1, s. 46). Qazan xan bu ağacın nə ağacı olduğunu və nə üçün gətirdiyini soruşduqda Qaraca Çoban «ağam Qazan bu ağac ol ağacdır kim, sən kafəri basarsan, qarnı acıqar, mən sana bu ağacla yemək bişirərüm» deyə cavab verdi. Göründüyü kimi Qaraca Çoban birinci halda daşı əlində daşıyırsa, ikinci halda kürəyində daşıyır.

Dastanda minik yük nəqliyyatı kimi əsasən dəvə, at, qatır, uzunqulağın adı çəkilir. Maraqlıdır ki, dastanın IV boyunda «Sayanın (piyada gəzənin) umudu olmaz» (1, s.71) deyə bildirilir. Bu isə həmin dövrdə minik yük nəqliyyatının insanların həyatında hansı rol oynadığını təsəvvür etməyə imkan verir. Dastanda əsas minik vasitəsi kimi atdan bəhs olunur, daha doğrusu dastanda oğuz qəhrəmanlarını atdan ayrı təsəvvür etmək mümkün deyildir. Oğuz igidləri döyüşə at üstündə gedir, səfərə, ova at üstündə çıxır, qəhrəmanlıq göstərənlərə hədiyyə kimi «boynu

uzun bədəvi at» verilir, evlənərkən aldıqları qızlara görə başlıq kimi «Keçi başlı Keçər Ayğır, Toğlı başlı Tur ayğır» (1, s. 55). Hünər göstərən igidlərə hədiyyə olaraq at bağışlanır. Ümumiyyətlə, dastanda əgər dəvə yük vasitəsi, qoyun şişlik kimi xarakterizə olunursa, at binət (minik vasitəsi) kimi xarakterizə olunur. Mənbədə rast gəlinən at adları: ayğır, şahbaz, boz ayğır, keçi başlı keçər, toğlu başlı Tur ayğır, bədəvi at və s. oğuzların çoxlu at cinslərinə sahib olduğunu göstərir. At ləvazimatlarının – yəhər, yüyən, nal, qamçı və s. çoxluğu burada atçılığın yüksək inkişafından xəbər verir. Böyük at ilxılarına ilxılıçılar baxır. Onlara əmir axurbaşı nəzarət edir (1, s. 53).

Etnoqrafik tədqiqatlar (T.Bünyadov, H. Həvilov, A.Mustafayev, T.Kərimov, F.Vəliyev) göstərir ki, Azərbaycanda son dövrlərə qədər atdan minik vasitəsi olmaqla yanaşı qoşqu və yükdaşıma vasitəsi kimi istifadə olunur. Lakin dastanda atın yalnız minik vasitəsi kimi xarakterizə olunmasına baxmayaraq ondan qoşqu və yükdaşıma məqsədi ilə də istifadə olunduğunu söyləmək olar.

«Kitabi-Dədə Qorqud»da əsas yükdaşıma vasitəsi kimi dəvədən bəhs olunur. Arxeoloji tədqiqatlar göstərir ki, dəvədən e.ə. II minilliiyin II yarısında istifadə olunmuşdur. A.İvanovski 1896-cı ildə Qarabulaq kəndində aparılan arxeoloji qazıntılara əsasən e.ə. İ minillikdə dəvədən yük daşımaqla yanaşı minik vasitəsi kimi də istifadə olunduğunu yazır. (9, s.11, 162 ). Dastanda isə yalnız dəvədən yüklət kimi istifadə olunduğu göstərilir: «Qaytabandan Qızıl dəvə vergil bu oğlana yüklət olsun, hünərlidir» (1, s.136). «Dəvə dəgirməndən gəlmədi (1, s. 33)». Dədə Qorqud oğuzlarının dəvədən əsas yükdaşıma vasitəsi kimi istiifadə etməsi əsassız deyildir. Çünki dəvə at, qatır kimi heyvanlara nisbətən daha çox yük (55-40 pud) götürə bilir. Dəvə bu heyvanlara nisbətən susuzluğa daha dözümlüdür: «Dünlə karvan getdigün turğay bilür (1, s. 32)». «Ayrı-ayrı yollar izin dəvə bilür (1, s. 32)». Heç şübhəsiz ki, karvan ticarətində də əsas rolu dəvə oynamışdır (12, s. 89). Dastanda tez-tez karvan, sarvan, bəzirgan kimi istilahların işlədilməsi oğuzların geniş ticarət əlaqələrindən xəbər verir.

Dastanda dəvə birmənalı şəkildə yükdaşıma vasitəsi kimi təqdim olunur. Minik vasitəsi kimi heç bir işarə yoxdur. Bu oğuzların atdan geniş istifadə etdiyi üçün dəvənin bu məqsədlə işlədilməsinə ehtiyac olmadığından irəli gələ bilər. Dastanda nəqliyyat vasitəsi kimi eşşək və qatırın da adı çəkilir. Başqa nəqliyyat vasitələrindən fərqli olaraq onların adı dastanda cəmi iki yerdə çəkilir: «Qara eşşək başına yüyən ursan qatır olmaz (1, s. 31). «Ağır yüklər zəhmin qatır bilər (1, s. 32). Bu, dastanın oğuz əslizadələri, cəngavər feodalların həyat və məişətindən bəhs etməsi, onların isə bu nəqliyyat vasitələrindən istifadə etməmələri və eyni zamanda həmin heyvanların oğuzların həyatında at və dəvəyə nisbətən az əhəmiyyət daşıması ilə bağlıdır. Elə buna görədir ki, hər iki yerdə bu heyvanlardan ironiya ilə danışılır. Eşşəkdən aşağı sosial təbəqələrin minik və yükdaşıma vasitələri kimi istifadə etmələri şübhəsizdir. Bunu son dövrlərə qədər onun qoyunçuluq təsərrüfatında öz əhəmiyyətini itirməməsi, az da olsa minik vasitəsi kimi istifadə olunması da göstərir (10, s. 9; 14, s. 130,). Hələ tunc dövründən nəqliyyat vasitəsi kimi istifadə edilən uzunqulağın (4, 103) müasir dövrdə də əhəmiyyətini itirməməsi ondan Dədə Qorqud oğuzlarının da istifadə etdiyini söyləməyə əsas verir.

Dastanda qatırdan əsasən yükdaşımada istifadə olunur. Azərbaycan ərazisində nə vaxtdan nəqliyyat vasitəsi kimi istifadə olunması məlum olmasa da onun dastanda öz ifadəsini tapması qatırdan çox-çox əvvəl istifadə olunduğunu göstərir. Hələ e.ə. III minillikdə Şərqdə istifadə olunması (6, s. 123) Azərbaycanda təqribən həmin dövrdə qatır saxlandığını söyləməyə imkan verir. Qatır iki cinsin: at və eşşəyin çarpazlaşmasından əmələ gəlir. Bu isə oğuzların atçılıq sahəsində geniş təcrübəyə malik olmasını göstərir. Qatır sürətinə görə atdan geri qalsa da dağlıq ərazidə yükdaşımada ondan çox üstündür. (2, s. 267). Məhz bu xüsusiyyətlərinə görə qatır dağ və dağ ətəyi ərazilərdə geniş yayılmışdır. Eyni zamanda yükgötürmə qabilliyyətinə görə daha dözümlü və üstündür və onun bu xüsusiyyəti dastanda da vurğulanır.

«Kitabi-Dədə Qorqud» dastanında qoşqu nəqliyyatından da bəhs olunur. Dördüncü boyda bu nəqliyyat vasitəsi kimi arabanın adı çəkilmişdir. Şahinlə ova çıxan zaman Tumanın təkuru tərəfindən tutulan Qazan xanın «əlin ayağın bərk bağladılar, bir ərəbəyə yüklətdilər, ərəbəyə möhkəm örkənlər səridilər, ərəbəyi çəkdilər, yürüyü verdilər (1, s. 116). Burada arabadan kafirlərin istifadə etdikləri göstərilsə də, oğuzların da ondan istifadə etdiyini söyləmək olar. Lakin dastanda oğuzların hansı araba növündən 2 və ya 4 təkərli arabalardan istifadə etdikləri göstərilməyib. Etnoqrafik tədqiqatlar (4, s. 153-167; 11, s. 112; 19, s.111; 14, s. 131-136) göstərir ki, ən qədim dövrlərdən Azərbaycanda 2-4 təkərli arabalardan istifadə olunmuşdur. Qobustan qaya rəsmlərində (5, s. 48), Gəmiqaya rəsmlərində (e.ə. II min. sonu – I min. əvvəllərində) 2 təkərli araba ilə yanaşı 4 təkərli araba rəsmlərinə də rast gəlinir. Qobustan rəsmlərindəki təkərlər toplu və dişlidir. Təsvirlərdə hər təkərdə yeddi diş verilmişdir. Lakin etnoqrafik tədqiqatlar göstərir ki, ilkin arabaların təkərləri val şəkilli olmuş və bütöv ağac gövdəsindən hazırlanmışdır (11, s. 113). Eyni zamanda son dövrlərə – XIX əsrə qədər təkər oxla birlikdə fırlanmışdır. Təkərin ox ətrafında fırlanması bu dövrdən sonraya təsadüf edir. Qədim arabaların təkərlərinin və özünün ağır olması dastanda açıq göstərilməsə də qoşqu vasitəsi kimi kəl və öküzdən istifadə edildiyini ehtimal etməyə əsas verir.

«Kitabi-Dədə Qorqud» dastanı ilə yanaşı digər qədim türk abidələri – «Oğuznamə»nin uyğur (16, s. 27) variantı, Fəzlullah Rəşidəddinin «Oğuznamə»sində (17,s.13), Əbülqazi Bahadır xanın «Şəcəreyi tərəkəmə»sində (7, s.55) arabanın qədim türklər tərəfindən düzəldildiyi göstərilir. Demək olar ki, bu fikir digər oğuznamələrdə olduğu kimi təkrar olunur. «Kitabi-Dədə Qorqud» oğuzlarının köçəri olduqlarını iddia edən bir çox tədqiqatçıların əksinə olaraq onların oturaq olmasını dastanda rast gəlinən su nəqliyyatı haqqındakı məlumatlar da sübut edir. İkinci boyda Uruz ağaca xitabən deyir:

Böyük-böyük suların köprüsü ağac,
Qara-qara dənizlərin gəmisi ağac (1, s. 48).

Dastanın yeddinci boyunda Düzmürd qalasında əsir olan atası Qazlıq qocanı xilas edən Yeynək gördüyü yuxunu danışır: «İlləri yatan Qara dənizi gördüm. Gəmi yapıb, kömləgim uqardım, yelkən qurdum. İlləri yatan dənizi gəldüm, keçdim» (1, s. 95). Antik müəlliflər: Strabon, Plimi (13) və ərəb müəlliflərinin Əl-Məsudi, Əl-İstəxri, Əl-Bəlxi yazdığına görə Kür və Araz çaylarından ən qədim zamanlardan nəqliyyat

vasitəsi кimi istifadə olunmuşdur (3, s. 40). Dastanda işlədilmiş qayıq, кolaz, кələк, lələ, avar, çən, sal və s. кimi terminlər göstərir кi, bu çaylarda gəmiçiliк yerli кöкə maliкdir.

Dastanda müxtəlif nəqliyyat vasitələrinin hərəкət etdiyi yollar və кörpülər haqqında кifayət qədər məlumat vardır. Azərbaycanın Şərqlə Qərb arasında tranzit qovşağında yerləşməsi sözü gedən mənbədə iz qoymaya bilməzdi. İri sənətкarlıq və ticarət mərкəzi olan orta əsr şəhərlərinin mövcudluğu ticarət əlaqələrinin beynəlxalq və yerli əhəmiyyətli yolların genişlənməsinə imкan yaradan amillərdən olmuşdu. Aparılan ticarət əlaqələri və qəhrəmanlarının səfərlərinin coğrafiyası bu yolların genişliyini göstərir. Oğuzların dəmir qapı Dərbəndə, Mardin qalasına, Trabzona, Qara Dəniz sahillərinə səfərləri daxili və beynəlxalq əhəmiyyətli yolların olduğunu göstərir. Orta əsr ərəb müəllifləri Əl-İstəxri, İbn-Havqəl, Əl-Müqəddəsi, İbn Xordadbeh, İdrisi Bərdədən Ərdəbilə, Tiflisə, Bab-ül-Əbvaba, Dəbilə, Marağaya, Anidə və s. uzanan yollar haqqında geniş məlumat verir (3, s. 59, 61). Dastanda göstərilən faкtlar və orta əsr müəlliflərinin məlumatları göstərir кi, Dədə Qorqud oğuzlarının кifayət qədər geniş əlaqələri olub və yollar bu əlaqələrin genişlənməsində mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Kitabi Dədə Qorqud. B., 1989.
2. Azərbaycan etnoqrafiyası. B., 1988.
3. Bünyatov T. Azərbaycanda su nəqliyyatı tarixi haqqında-Azərbaycan tarixinə dair materiallar. B., 1961.
4. Bünyatov T.Azərbaycanda əкinçiliyin inкişafı tarixinə dair.B., 1964.
5. Джафарзаде И.М. Наскальные изображения Кобыстана. Б.
6. Дьяконов И.М. История Мидии. М.-Л. 1956.
7. Əbülqazi Bahadırxan. Şəcəreyi tərəкəmə.B., 2002.
8. Həvilov H.A.Azərbaycan etnoqrafiyası.B., 1991.
9. Ивановский А.А. По Закавказью. Материалы по археологии Кавказа.Б., 1911.
10. Керимов Т.М.Народные транспортные средства Азербайджана в XIX нач. XX вв.Б., 2004.
11. Керимов Т.Из истории транспортных средств Азербайджана- АЭС, вып. 5, Б., 1985.
12. Kərimov T. Azərbaycanda кarvan ticarəti haqqında. Az.EA-nın xəbərləri. Tarix, hüquq, fəlsəfə seriyası,1978,№4.
13. Ганн К. Известия древних греческих и римских писателей о Кавказе-СМОМПК, вып. 4, 1884.
14. Məmmədov H.Muğanın maddi mədəniyyəti.B. 2000.
15. Məmmədov H.Dədəm Qorqud кeçən yerdi bu yerlər, "Azərbaycan" jurnalı, № 2, B., 1990.
16. Oğuznamələr. B., 1993.
17. Rəşidəddin F.Oğuznamə.B., 1992.

# ТРАДИЦИОННЫЕ ВИДЫ ТРАНСПОРТА АЗЕРБАЙДЖАНЦЕВ В ЭПОСЕ «КИТАБИ ДЕДЕ КОРКУД»

**А.А.АСАДОВА**

**РЕЗЮМЕ**

Традиционные виды транспорта являются одним из важных элементов материальной культуры азербайджанцев. Уровень развития средств народного транспорта связан с общим экономическим и культурно-техническим развитием общества. В эпосе "Китаби Деде Коркуд" описаны различные способы передвижения начиная с самых простых до вьючных и даже водного транспорта. Лошадь, основной вид транспорта огузов, занимает почетное место в хозяйстве и быту.

# THE FOLK TRANSPORT MEANS İN EPOS OF «KİTABİ-DEDE GORGUD»

**A.A.ASADOVA**

**SUMMARY**

The epos “Kitabi Dede Qorqud” is the ricest etnoqrafical source. There is a lot of about demeans of folк transport in the epos of “Kitabi dede Gorgud”. Oguz peoples used horses transport most.The informations about water transport is very interestinq in this epos .Generally all кinds of folк transport is an important consisting part of culture